**SEVİNC HÜSEYNOVA**
**AMEA Hüquq və İnsan Haqları İnstitutunun "Cinayət hüququ və cinayət prosesi" şöbəsinin elmi işçisi**
**E-mail: sevhuseyn@yahoo.com**
**Tel.: 050 683 43 70**
**UOT 342.07**

# TÜRKDİLLİ DÖVLƏTLƏRİN KONSTİTUSİYALARINDA YAŞAMAQ HÜQUQUNUN TƏMİNATI

**Açar sözlər:** konstitusiya, yaşamaq hüququ, təbii hüquq, evtanaziya, ölüm cəzası, toxunulmazlıq hüququ, şəxsiyyət azadlığı, azadlıq hüququ, həbsə alma, azadlıqdan məhrum etmə

**Ключевые слова:** конституция, право на жизнь, естественное право, эвтаназия, смертная казнь, неприкосновенное право, личная свободы, право на свободу, арест, лишение свободы

**Keywords:** constitution, right for life, natural right, euthanizing, death penalty, inviolable right, personal freedoms, right to freedom, arrest, imprisonment

Vətəndaşların siyasi hüquqlarından fərqli olaraq, şəxsi hüquq və azadlıqlar xeyli dərəcədə insanın təbii hüquqları konsepsiyası ilə əlaqədardır. Bu hüquqların məhdudlaşdırılmasına bəzi ölkələrin konstitusiyaları (Braziliya, İsveçrə və s.) yalnız müharibə vaxtı yol verir. Onların sırasına daxil olan yaşamaq hüququ hüquqi cəhətdən insanın, ümumiyyətlə, dövlət tərəfindən həyatdan məhrum edilə bilinməməsi (40-a yaxın ölkənin konstitusiyası ölüm cəzasını ləğv etmişdir) və ya yalnız qanun əsasında andlı iclasçıların mütləq iştirak etdiyi məhkəmənin hökmü ilə həyatdan məhrum edilə bilinməsini ifadə edir. Lakin həyatdan məhrum etmənin ekstraordinar halları da vardır: məsələn, hərbi obyekti mühafizə edən gözətçinin postda silah tətbiq etməsi; bəzən evtanaziyaya – sağalmaz xəstəliyə düçar olan və yaşamasının ağır iztirablar verdiyi xəstələrin həyatdan məhrum edilməsinə icazə verilir. Bu, xəstənin xahişi ilə, uşaqlar barəsində isə valideynlərin icazəsi ilə tibbi konsiliumdan sonra həyata keçirilir (buna yol verən qanunlar 1996-cı ildə Avstraliyanın bəzi ştatlarında və ərazilərində qəbul edilmişdir, 1998-ci ildə ABŞ-ın bəzi ştatlarında sağlam olan vaxtda evtanaziya barədə vəsiyyət etməyə icazə verilmişdir). Niderlandda evtanaziya 2002-ci ildə leqallaşdırılmışdır. Beyinin fəaliyyətinin tam kəsilməsi ölüm anı hesab edilir. Bu andan ölənin orqanları transplantasiya üçün götürülə bilər.

Yaşamaq hüququ ilə klonlaşdırma yəni şəxsin bədən hüceyrəsindən canlı orqanizminin surətinin yaradılması problemi sıx bağlıdır. Bir çox ölkələrdə klonlaşdırmanın mənfi nəticələri düzgün qiymətləndirilərək, onun aparılmasına qadağa müəyyən edilmişdir.

Şəxsiyyətin mühüm hüquqlarına azadlıq hüququ, fiziki və psixi toxunulmazlıq da aiddir. Azadlıqdan məhrum etmə (həbs etmə və s.) yalnız məhkəmə qərarı ilə həyata keçirilə bilər. İnsanın qul kimi saxlanılması və alveri uzun müddətdir ki, beynəlxalq hüquqda cinayət hesab edilmişdir. Beynəlxalq hüquqla qadağan edilməsinə baxmayaraq, inkişaf etməmiş bəzi ölkələrin müəyyən tayfalarında ev köləliyinə hələ də rast gəlinir.

Şəxsiyyətin azadlığı insanın özü barəsində dövlət orqanlarında olan məlumatları əldə etmək və onlara düzəliş etmək hüququ ilə də bağlıdır. Şəxsiyyət azadlığı bəzi xəstələrin (məsələn, ruhi xəstələrin) məcburi müalicəsini, ətrafdakılar üçün son dərəcə təhlükəli xəstəliyi olan digər şəxslərin müvəqqəti təcrid olunmasını istisna etmir. Lakin bu, hər bir halda məhkəmənin qərarı ilə həyata keçirilir.

Şəxsi toxunulmazlıq insanın azadlıqdan müvəqqəti məhrum edilməsinin (həbsin, polis tərəfindən tutulmanın) yalnız müəyyən müddətə və qanunda nəzərdə tutulmuş qaydalara riayət edilməklə həyata keçirilməsini nəzərdə tutur. Şəxs ictimai qaydanı pozduqda polis əməkdaşı tərəfindən tutula bilər. Lakin tutulmanın müddəti adətən 48-72 saat olmaqla məhduddur, amma bundan fərqli olaraq, bəzi ölkələrdə daha uzun müddətlidir. Məsələn, Hindistanda terrorçular haqqında qanuna görə 180 gün müəyyən edilmişdir. Müddət keçdikdən sonra tutulmuş şəxsi ya azad etmək, ya da ona qarşı ittiham irəli sürmək lazımdır. Bəzən tutulma müddəti ərzində saxlamaq üçün dərhal hakimin sanksiyasını almaq tələb olunur. Bəzi hallarda hakimin sanksiyası ilə uzunmüddətli tutulma üçün digər əsaslar da tələb olunur. İranda cinayət başında yaxalandıqda müddətsiz tutulma mümkündür. İntizam qaydasında həbs (hərbi qulluqçunun hauptvaxtda saxlanılması) bir çox ölkələrdə hakimin (adətən, hərbi məhkəmənin) sanksiyası ilə tətbiq edilir.

Əsassız tutulmaya qarşı başlıca hüquqi təminat orta əsrlərdə Böyük Britaniyada meydana gəlmiş və hazırda əksər ölkələrdə qəbul edilmiş habeas korpus (habeas corpus) institutudur. Habeas korpus tutulan istənilən şəxsin tələbi ilə onun dərhal hakimin yanına həbs yerinə göndərilməsini nəzərdə tutur. Latın Amerikası ölkələrində analoji institut – amparo (proceso amparo) mövcuddur. Bu halda dərhal hakimin yanına aparılmaq barədə tələb təkcə tutulmuş şəxsdən yox, həm də digər şəxslərdən (yetkinlik yaşına çatmayanlar da daxil olmaqla), özü də şifahi formada da gələ bilər. Bundan başqa, amparo (ispanca – müdafiə) təkcə tutulmaya aid edilmir, həm də digər şəxsi hüquqların təminatı kimi nəzərdən keçirilir (2, s. 84-86).

Yuxarıda qeyd etdiyimiz kimi, yaşamaq hüququ insanın əsas konstitusion hüquqlarından biri sayılır. Çünki yaşamaq hüququnun pozulması ilə insanın bütün hüquqlarının xitamı baş verir. Lakin nə hüquq nəzəriyəsində, nə də beynəlxalq hüquqi aktlarda insan həyatının başlanğıc anı ilə bağlı qəti meyarlar müəyyən edilməmişdir (3, s. 26).

Bəs türkdilli dövlətlərdə insanın yaşamaq hüququnun konstitusion təminatı necə tənzimlənmişdir?

İlk öncə qeyd edək ki, Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) 21 noyabr 2008-ci ildə Türkiyə Respublikasının İstanbul şəhərinin “Dolmabaxça Sarayı”nda Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğızıstan Respublikası və Türkiyə Respublikasının parlament rəhbərlərinin imzalamış olduğu Sazişlə təsis olunmuşdur. TürkPA-nın Hüquq məsələləri komissiyasının 2011-ci il dekabrın 19-da keçirilən birinci iclasında türkdilli ölkələrin konstitusiyalarının mətnlərinin və parlamentlərinin nizamnamələrinin Assambleya üzvü olan ölkələrin dillərinə tərcümə edilməsi və nəşr olunması haqqında qərar qəbul edilmişdir. Parlamentlərarası əməkdaşlığa kömək göstərilməsi məqsədi ilə TürkPA-nın Beynəlxalq Katibliyi tərəfindən hazırlanmış “Türkdilli Ölkələrin Konstitusiyaları” adlı Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan konstitusiyalarının mətnləri toplusu nəşr olunmuşdur (4).

Azərbaycan Respublikasının qüvvədə olan konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş, 1995-ci il noyabrın 27-dən qüvvəyə minmişdir. 2002-ci il avqusutun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsvermələri (referendumlar) yolu ilə bu konstitusiyaya əlavələr və dəyişikliklər edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 27-ci maddəsində insanın yaşamaq hüququ təsbit edilmişdir. Həmin maddənin 1-ci hissəsi istisna olmaqla, 2-ci, 3-cü və 4-cü hissələrində insanın yaşamaq hüququndan məhrum edilməsini nəzərdə tutan müddəalar öz əksini tapmışdır:

I. Hər kəsin yaşamaq hüququ vardır.

II. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır.

III. Müstəsna cəza tədbiri kimi ölüm cəzası,

tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər.

IV. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla, insana qarşı silah işlədilməsinə yol verilmir (1).

Qazaxıstan Respublikasının Konstitusiyası 1995-ci il avqustun 30-da referendum yolu ilə qəbul edilmişdir və 1995-ci il sentyabrın 5-də referendumun nəticələrinin dərc edildiyi gün qüvvəyə minmişdir. Qazaxıstan Respublikasının 1998-ci il 7 oktyabr, 2007-ci il 21 may və 2011-ci il 2 fevral tarixli qanunları ilə konstitusiyaya dəyişiklik və əlavələr edilmişdir. Qazaxıstan Respublikasının Konstitusiyası dövlətin demokratik, dünyəvi, hüquqi və sosial dövlət olduğunu təsdiq edir; onun ali dəyərləri insan, onun həyatı, hüquqları və azadlıqlarıdır. İnsanın yaşamaq hüququna dair müddəalar Qazaxıstan Respublikası Konstitusiyasının 15-ci maddəsində – aşağıdakı məzmunda öz əksini tapır:

1. Hər kəsin yaşamaq hüququ vardır. 2. Heç kəs özbaşına olaraq insanı həyatdan məhrum edə bilməz. İnsanların həlak olması ilə nəticələnən terrorçuluq cinayətlərinə, habelə müharibə zamanı törədilmiş xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi ölüm cəzasının təyin edilməsi, məhkuma əfv edilməsinə dair vəsatət qaldırmaq hüququ verilməklə, qanunla müəyyənləşdirilir (6).

Qırğızıstan Respublikasının Konstitusiyası 2010-cu il 27 iyun tarixli Qanunla qüvvəyə minmişdir. Konstitusiya quruluşunun əsaslarına görə Qırğızıstan suveren, demokratik, hüquqi, dünyəvi, unitar, sosial dövlətdir. Qırğızıstan Respublikası öz ərazisində tam dövlət hakimiyyətinə malikdir, daxili və xarici siyasətini müstəqil həyata keçirir. Konstitusiyanın 21-ci maddəsində yaşamaq hüququ ilə bağlı müddəalar aşağıdakı məzmunda təsbit olunmuşdur:

Hər kəsin həyata ayrılmaz hüququ vardır. Heç kəs həyatdan özbaşına məhrum edilə bilməz. Ölüm cəzası qadağandır (7).

Özbəkistan Respublikasının Konstitusiyası Özbəkistan Respublikası Ali Sovetinin 1992-ci il dekabrın 8-də keçirilən on birinci sessiyasında qəbul edilmişdir. Özbəkistan Respublikasının 1993-cü il 28 dekabr, 2003-cü il 24 aprel, 2007-ci il 11 aprel, 2008-ci il 25 dekabr və 2011-ci il 18 aprel tarixli qanunlarına uyğun olaraq Konstitusiyaya dəyişiklik və əlavələr edilmişdir. Özbəkistan Respublikası suveren demokratik respublikadır. Dövlətin "Özbəkistan Respublikası" və "Özbəkistan" adları eyni mənalıdır. Dövlət xalqın iradəsini ifadə edir, onun mənafelərinə xidmət göstərir. Dövlət orqanları və vəzifəli şəxslər cəmiyyət və vətəndaşlar qarşısında məsuliyyət daşıyırlar. Yaşamaq hüququnun müddəaları konstitusiyanın 24-cü maddəsində öz əksini tapmışdır: Yaşamaq hüququ hər bir insanın ayrılmaz hüququdur. Həyata qəsd edilməsi ən ağır cinayətdir (8).

Türkiyə Respublikasının Konstitusiyası 1982-ci il noyabrın 7-də qəbul edilmişdir. Türkiyə dövləti Respublikadır. Türkiyə Respublikası cəmiyyətin rahatlığı, milli həmrəylik və ədalət anlayışına əsaslanan, insan hüquqlarına hörmət bəsləyən, Atatürk millətçiliyinə bağlı olan, başlanğıc hissəsində şərh edilmiş əsas prinsiplərə söykənən demokratik, dünyəvi və sosial hüquqi dövlətdir.

Yaşamaq hüququ ilə bağlı müddəa konstitusiyanın 17-ci maddəsində təsbit olunmuşdur: Hər kəsin yaşamaq, maddi və mənəvi varlığını qorumaq və inkişaf etdirmək hüququ vardır; Tibbi zərurət və qanunla müəyyən edilmiş hallardan başqa, insanın bədən bütövlüyü toxunulmazdır; öz razılığı olmadan onun üzərində elmi və tibbi təcrübələr aparıla bilməz; Heç kəsə işgəncə və əzab verilə bilməz; heç kəs insan ləyaqəti ilə bir araya sığmayan cəzaya və ya rəftara məruz qoyula bilməz;

(1) Qanuni müdafiə halı, tutma və həbs qərarlarının yerinə yetirilməsi, dustağın və ya məhkumun qaçmasının qarşısının alınması, iğtişaşın və ya üsyanın yatırılması, hərbi və ya fövqəladə vəziyyət halında səlahiyyətli orqanın verdiyi əmrlərin yerinə yetirilməsi gedişində silah işlədilməsinə qanunun icazə verdiyi məcburi durumlar-

da öldürmə əməlləri birinci hissənin müddəasının tətbiq dairəsindən kənardadır.

II. Məcburi əməyə cəlb etmək qadağandır (5).

Türkmənistan Konstitusiyası 1992-ci il mayın 18-də qəbul edilmişdir. Konstitusiyaya 1995, 1999, 2003, 2006, 2008 və 2016-ci illərdə düzəlişlər edilib, 8 fəsil və 142 maddədən ibarətdir. Türkmənistan konstitusiya quruluşunun əsaslarına görə demokratik, hüquqi və dünyəvi dövlətdir, burada dövlət idarəçiliyi Prezidentli Respublika formasında həyata keçirilir. Türkmənistan öz ərazisində ali və tam hakimiyyətə malikdir, daxili və xarici siyasətini müstəqil həyata keçirir. Türkmənistanın dövlət suverenliyi və ərazisi vahid və bölünməzdir. Dövlət Türkmənistanın müstəqilliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunu müdafiə edir, qanunçuluğu və hüquq qaydasını təmin edir. Türkmənistan daimi bitərəfik statusuna malikdir.

Konstitusiyada yaşamaq hüququna dair müddəalar 32-ci maddədə təsbit olunmuşdur: Hər bir insanın yaşamaq hüququ və bu hüququ həyata keçirmək azad- lığı vardır. Heç bir insan yaşamaq hüququndan məhrum edilə bilməz. Hər bir insanın azad yaşamaq hüququ qanuna əsasən dövlət tərəfindən qorunur; Türkmənistanda ölüm cəzası ləğv edilmişdir (9).

Beləliklə, Azərbaycanla yanaşı, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan dövlətlərinin konstitusiyalarında əks olunan insanın yaşamaq hüququ ilə bağlı müddəaların təhlili ilə belə nəticəyə gəlirik ki, bu ölkələrdə insanın yaşamaq hüququna konstitusion təminat verilmişdir. Bəzi türkdilli dövlətlərdə ölüm cəzası ümumiyyətlə cinayət cəzası sistemindən çıxarılmış, bəzilərində isə bu cəza növü yalnız şəxsiyyət əleyhinə və sülh və insanlıq əleyhinə törədilən xüsusilə ağır cinayətlərə görə tətbiq edilir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın evi, 2016, 92 s.
2. Çirkin V.Y. Xarici ölkələrin Konstitusiya hüququ (ruscadan tərcümə). Bakı: Digesta nəşriyyatı, 2009, 720 s.
3. Əliyev N.K. Həyat və sağlamlıq əleyhinə iştirakçılıqla törədilən cinayətlərə görə məsuliyyətin diferensiasiyası problemləri (qanun, nəzəriyyə, praktika): h.ü.e.d. elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı, 2015, 57 s.
4. Türkdilli ölkələrin konstitusiyaları - Turk-PA.org turk-pa.org/file/330_1500542967_8203.pdf Türkdilli ölkələrin konstitusiyaları / Türkdilli ölkələrin Parlament Assambleyası; tərc., red. H. Babayev. - Bakı, 2016.- 366 s. - Ankara : n. y., 2012.-260 s. (TürkPA-nın nəşrləri:5).
5. TÜRKİYE CUMHURİYETİ ANAYASASI (1)(2)(3) - Mevzuat
www.mevzuat.gov.tr/MevzuatMetin/1.5.2709.pdf
6. Конституция Республики Казахстан
cso-central.asia/lib/law/1/konstituciya-respubliki-kazahstan.pdf.
7. Конституция Кыргызской Республики
cbd.minjust.gov.kg/act/view/ru-ru/202913?cl=ru-ru
8. Конституция Республики Узбекистан - Законодательство стран СНГ base.spinform.ru/show_doc.fwx?rgn=818
9. ПРОЕКТ: КОНСТИТУЦИЯ ТУРКМЕНИСТАНА (новая ... www.osce.org/ru/odihr/262471?download=true [PDF]

**Севиндж Гусейнова**

**Обеспечение права на жизнь в конституциях туркоязычных государств**

**Резюме**

В статье исследуются понятие, структура и составные части права на жизнь как одного из естественных прав человека, а также анализируются особенности его конституционно-правовой регламентации. Поскольку право на жизнь не имеет эквивалента, оно расценивается как общечеловеческая социальная ценность. В конституциях туркоязычных государств уделяется внимание регулированию праву на жизнь как одному из важнейших и неотъемлемых благ человека. Как и в конституциях европейских государств, в конституциях туркоязычных стран отсутствует четкий критерий момента возникновения права на жизнь.

**Sevinj Huseynova**

**Ensuring the right for life in constitutions of turk-speaking states**

**Summary**

In article the concept, structure and components of the right for life as one of natural human rights are investigated and also its features of his constitutional and legal regulation are analyzed. As the right for life has no equivalent, it is regarded as universal social value. In constitutions of turk-speaking states attention is paid to regulation to the right for life as to one of the most important and integral benefits of the person. As well as in constitutions of the European states, in constitutions of the turk-speaking countries is absent accurate criterion of the moment of emergence of the right for life.